GÜNÜN SİYASİ NƏBZİ

# Azərbaycanın hərbi gücü:

## Cənubi Qafqazda sabitlik və sülhün təminatçısı

**Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü və modern silahlı qüvvələrindən biri olaraq müasir döyüş texnologiyaları, intizamlı hərbi birləşmələri və peşəkar şəxsi heyəti ilə bölgənin təhlükəsizliyinin əsas təminatçısıdır. Rəsmi Bakının strateji hərbi planlaması, ordunun texniki modernizasiyası və yüksək döyüş hazırlığı Azərbaycanın bölgədə sarsılmaz gücünü təsdiqləyir.**

Ordumuz 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə göstərdiyi yüksək döyüş qabiliyyəti və dəqiqliklə icra edilən əməliyyatlarla dünyada diqqət mərkəzinə çevrildi.

Bu uğurlar Azərbaycanın beynəlxalq reytinqlərdəki mövqeyinə də əhəmiyyətli təsir göstərir. Beynəlxalq reytinqlərə görə, Azərbaycan 145 ölkə arasında 60-cı yerdə qərarlaşıb və bu, Cənubi Qafqazın digər ölkələri - Ermənistan və Gürcüstanla müqayisədə əhəmiyyətli üstünlüyü ortaya qoyur. Ermənistan 91-ci, Gürcüstan isə 94-cü yerdədir. 2025-ci il üçün ölkəmiz müdafiə xərclərini 8,4 milyard manat həcmində müəyyənləşdirib. Bu, həm dövlət büdcəsindən, həm də Dövlət Neft Fondundan daxilolmalar hesabına maliyyələşdiriləcək. Hərbi xərclərin bu səviyyədə artırılmasının əsas səbəblərindən biri Ermənistanın davamlı silahlanmasıdır. Ermənistan hökuməti 2025-ci ildə müdafiəyə 1,7 milyard dollardan çox pul xərcləməyi planlaşdırır ki, bu da ölkənin ÜDM-nin 6 faizini təşkil edir. Buna baxmayaraq, Ermənistanın hərbi potensialı Azərbaycanın imkanları ilə müqayisədə əhəmiyyətli dərəcədə zəifdir.

"Ermənistanın kütləvi surətdə silahlanmasını nəzərə alaraq, biz gələn ilin hərbi büdcəmizi əhəmiyyətli dərəcədə artırmışıq. Bu, rekord həddə çatıb - 8,4 milyard manat səviyyəsinə qalxıb. Yenə də deyirəm, biz məcbur qalıb bunu bu səviyyəyə qaldırmışıq. Çünki Cənubi Qafqazda Ermənistanın başlatdığı silahlanma yarışında biz geridə qala bilmərik. Ancaq əgər bu silahlanma yarışı olmasaydı, həmin bu pulun ən azı, ən azı yarısı digər sahələrə istiqamətləndiriləcəkdi - Qarabağın, Şərqi Zəngəzurun bərpa edilməsinə, vətəndaşlarımızın sosial problemlərinin həllinə. Sadəcə olaraq, müqayisə üçün deyim. Hərbi xərclərimiz 8,4 milyard manat olacaq. Qarabağa və Şərqi Zəngəzura isə gələn il biz 4 milyard manat ayırırıq. Bunun tam əksi ola bilərdi. Sadəcə olaraq, Ermənistan və onun arxasında duran və onlara pis məsləhətlər verən ölkələr buna imkan vermir". Cənab İlham Əliyevin dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində səsləndirdiyi bu fikirlər Ermənistanın sülhə qarşı yanaşmasını, əksinə, silahlanmaya daha çox manevr etdiyini göstərir. Ermənistanın 2024-cü ildəki hərbi büdcəsi 1,4 milyard dollar olmuşdur və bu, cəmi 7 faiz artım deməkdir. Halbuki Azərbaycanın hərbi büdcəsi son iki ildə 43 faiz artaraq daha yüksək göstəriciyə çatıb. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, əgər Ermənistan sülh istəyirsə, onun bu dərəcədə silahlanması məntiqsizdir. Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistanın hərbi büdcəsinin artımı regionda sabitliyə təhlükə yaradır və sülhə mane olur. Azərbaycanın bu kontekstdə müdafiə siyasəti yalnız öz ərazi bütövlüyünü qorumağa yönəlib.

Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşdirilməsi həm də Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının qalması fonunda zəruridir. Bundan əlavə, İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsindən sonra regionda yeni hərbi reallıqlar formalaşıb. Hərbi ekspertlər hesab edirlər ki, Ermənistanın yenidən silahlanması bu qələbənin nəticələrini sarsıtmağa yönəlmişdir. Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, hərbi gücün artırılması yalnız müdafiə məqsədi daşıyır və Ermənistanın təxribatlarına qarşı preventiv tədbirlər üçün nəzərdə tutulub.

Azərbaycanın müdafiə siyasəti təkcə hərbi xərclərlə məhdudlaşmır. Siyasi kontekstdə də Azərbaycan diplomatik aktivliyini artıraraq Ermənistanın iddialarına qarşı qlobal səviyyədə mövqeyini gücləndirir. 2025-ci il dövlət büdcəsində müdafiə xərclərinin 20,3 faiz təşkil etməsi də bu strategiyanın tərkib hissəsidir. Ermənistan isə bu rəqabətə girməkdə çətinlik çəkir. Ermənistanın silah yarışında Azərbaycanla rəqabətə girməsi, hərbi büdcəni əsassız yerə artırması, həmçinin kredit və "ianə"lərlə ölkəyə silah-sursat idxal etməsi sülh istəyən tərəfin atmalı olduğu ən axırıncı addımlardır ki, rəsmi İrəvan deyəsən, sondan başlayıb.

Rəsmi Bakı açıq şəkildə bildirir ki, əgər Ermənistan həqiqətən sülh istəyirsə, silahlanma siyasətindən imtina etməlidir. Azərbaycanın hərbi qüdrətini gücləndirməsi isə sülhün təminatı və regionda sabitliyin qorunması üçün strateji zərurətdir. Nə qədər ki, Ermənistan konstitusiyasındakı ərazi iddiaları və silahlanma siyasəti davam edir, Azərbaycan öz müdafiə potensialını daha da gücləndirəcək.

**Tacir SADIQOV.**
**"Respublika".**